KHAZAR VIEW

# XƏZƏR XƏBƏR

ELMİ-KÜTLƏVİ, ƏDƏBİ-PUBLİSİSTİK TOPLU

№ 341 İyun 2015






## AZƏRBAYCAN AVROPA OYUNLARININ TARİXƏ ÇEVRİLƏCƏK İLK PARLAQ SƏHİFƏSİNİ YAZDI

khazar-review.khazar.org

AYLIQ DƏRGİ

ISSN 2218 - 2772



Baku 2015

1 ST EUROPEAN GAMES





# İÇİNDƏKİLƏR

"Bakı-2015" Birinci Avropa oyunlarının açılış mərasimi . . . . . . . . . . . . . . . . . . . . . . . 4
Xəzər Universitetinin tələbələri "Azərbaycan tarixi- memarlıq irsi gənclərin gözü ilə" rəsm müsabiqəsinin qalibləri oldular. . . . . . . . . . . . . . . . . . . . . 16
*Hamlet İsaxanlı.* Platon və sevgi fəlsəfəsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 26
*Исахан Исаханлы.* «И волны Каспия, и Балаханский май...». . . . . . . . . . . . . . 42
Universitet xəbərləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 48
NDU xəbərləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 50
*Э. Рустамова.* В Китае растет число студентов из Азербайджана . . . . . . . . 56
Mulki müdafiəçilər universitetdə. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 58
Tələbələr Azərkosmosda . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 60
*With Regards.* India Institute of Finance Publishes News About Khazar . . . . . . . . 62
*Alissa Greenberg*: A Nobel Scientist Just Made a Breathtakingly Sexist Speesh at International Conference . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 65
*Gi de Mopassan.* Sən təltif olunmusan! . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 70
*Katy Steinmetz*: San Francisco Approves Warning Label for Sugary Drink ADS Measure is Aimed at Curtailing Locals' Consumption of Hign-Calorie drinks. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 75
*Teyyub Qurban.* Şeirlər. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 76
Şəhərlərin simvolları: Azadlıq abidəsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 78

1995-ci ilin yanvarından nəşr olunur

Təsisçi:
Xəzər Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Balayev

Redaksiya heyəti:
Camal Mustafayev
Əjdər Ağayev
Alla Axundova
Knyaz Aslan

Rəssam:
Mir Rafiq Əbdülrəhimov

Kompüter tərtibatçısı:
Nigar Aydəmirova

Foto:
Multimedia Mərkəzi

XƏZƏR UNİVERSİTETİ · BAKI · 1991

Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org
Certificate: 376
Index: 67178
Copies: 3000

It has been published since January 1995

Founder:
Khazar University

Editor-in-chief:
Hamlet Isaxanli

Associate editors:
Alirza Balayev

Editorial member:
Jamal Mustafayev
Ajdar Aghayev
Alla Akhundova
Knyaz Aslan

Design by:
Mir Rafig Abdulrahimov

Computer graphics:
Nigar Aydemirova

Photo:
Multimedia Centre



## “Bakı - 2015” BİRİNCİ AVROPA OYUNLARININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ





İyunun 12-də "Bakı-2015" Birinci Avropa Oyunlarının təntənəli açılış mərasimi keçirildi. Mərasimin təşkilinə 28 ölkədən 300-dən çox yaradıcı heyət və 34 ölkədən 1000 nəfər mütəxəssis cəlb olunmuşdu. Açılış mərasiminin bədii rəhbəri 2004-cü ildə Afina Olimpiya Oyunlarında mərasimlərin qurucusu kimi dünyada böyük şöhrət qazanan Dimitris Papaioannou, musiqi rəhbəri Teodor Currentzis, quruluşçu rəssamlar isə Tanassis Demiris və Eva Manikadaki idi.

Beləliklə, çoxdan bəri səbirsizliklə gözlənilən, həyəcan və qürur doğuran tarixi an - Bakı Olimpiya Stadionunda ilk Avropa Oyunlarının açılış mərasimi başladı. Bakı Olimpiya Stadionuna toplaşmış 68 min tamaşaçı, eləcə də dünyada yüz milyonlarla televiziya tamaşaçısı unudulmaz tarixi anın şahidi oldular.

Stadion ən mürəkkəb tərtibata malik möhtəşəm səhnə mexanizmindən ibarət məkana çevrilmişdi: təbiətin dörd ünsüründən - su, od, torpaq və yel obrazlarından istifadə etməklə heyrətamiz bir mənzərə yaranmışdı.

Tamaşaçıların sürəkli alqışlarından sonra stadiona bir anlıq sükut çökdü. Bu sükutu dünya şöhrətli xanəndə Alim Qasımovun ifa etdiyi muğamın avazı pozdu. Sonra ritmik nağara sədaları altında 24-dən sıfıra doğru geriyə sayım başladı. Bu, 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 24 ilini əks etdirirdi.

Rəqəmlər sıfıra yaxınlaşdıqca nağaraların səsi zilə qalxırdı. Stadion gur işığa qərq olur və minədək rəqqasə səhnənin əsas hissəsini ətəkləri ilə örtürdü. Onların ətəkləri Azərbaycanın dünyaca məşhur xalılarındakı həndəsi fiqurlarla, dekorativ naxışlarla işlənmişdi. Rəqqasələrin paltarlarının ətəkləri 16 min kvadratmetr parçadan tikilib. Bu, 13 Olimpiya üzgüçülük hovuzu böyüklükdə parça deməkdir. Hər ətək məxsusi olaraq səhnədəki yerinə görə işlənib.





Rəqqasələrin ətəklərinin son yellənişində Azərbaycanın dövlət bayrağının obrazı yarandı. Səhnədən səmaya fişənglər atıldı. Şeypurçular Dmitri Şostakoviçin "Bayram uvertürası"ndan bir parça səsləndirdilər. Diqqət VİP-lojalara yönəldi və salamlama başladı. Mərasim iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi, birinci xanım, "Bakı-2015" ilk Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanı və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkini hərarətlə salamladılar.

Stadionun VİP tribunasında Oyunların açılış mərasimində iştirak etmək üçün Bakıya gəlmiş mötəbər qonaqlar arasında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Rusiya Prezidenti Vladimir Putin, Belarus Prezidenti Aleksandr Lukaşenko, Serbiya Prezidenti Tomislav Nikoliç, Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov, Tacikistan Prezidenti Emoməli Rəhmon, Monteneqro Prezidenti Filip Vuyanoviç və bir sıra digər dövlətlərin yüksək səviyyəli rəsmi şəxsləri, tanınmış ictimai-siyasi xadimlər, dünya idman ictimaiyyətinin görkəmli nümayəndələri əyləşmişdilər.







Simfonik orkestrin ifasında Azərbaycanın dövlət himni səsləndirildi.

Azərbaycan Respublikasının Dövlət bayrağı stadiona gətirildi.

İki dəfə paralimpiya oyunları çempionu, ikiqat dünya çempionu, beşqat Avropa çempionu İlham Zəkiyev Jan Sibeliusun "5-ci Simfoniya"sının sədaları altında birinci Avropa Oyunlarının məşəlini stadiona gətirdi. Gənclərin Olimpiya Oyunlarında taekvondo üzrə qızıl medala layiq görülmüş Səid Quliyev onunla yanaşı addımlayırdı.

Sonra dahi şair Nizami səhnəyə gəldi. Şair tamaşaçını yaradıcılığının doqquz mövzusu ətrafında səhnədən-səhnəyə aparırdı. Evlər, saray və məktəblər, şahzadələr, əjdahalar, atlar, digər real və əfsanəvi varlıqlar görünürdü.

Stadionun mərkəzinə doğru uçan-bolluq, oyanış, sevgi, uğur mücəssəməsi olan və Azərbaycanı rəmzləşdirən nəhəng bir nar göründü. Nar paralandı və onun dənələri – qırmızı rəngli yüzlərlə şar tribunaların üzərində uçmağa başlayaraq ecazkar mənzərə yaratdı.



Sonra komandaların paradı başladı. Bu mərasim 50 təbilçinin çaldığı gurultulu təbil sədaları ilə müşayiət olunurdu. İlk olaraq Olimpiya Oyunlarını dünyaya bəxş etmiş ölkənin – Yunanıstanın idmançıları səhnəyə daxil oldular. Digər ölkələrin komandaları onun arxasınca əlifba sırası ilə gəlirdilər.





İdmançıların keçidini Albaniya, Andorra, Ermənistan, Avstriya, Belarus, Belçika, Bosniya və Herseqovina, Bolqarıstan, Xorvatiya, Kipr, Çexiya, Danimarka, Estoniya, Finlandiya, Makedoniya, Fransa, Gürcüstan, Almaniya, Böyük Britaniya, Macarıstan, İslandiya, İrlandiya, İsrail, İtaliya, Kosovo, Latviya, Lixtenşteyn, Litva, Lüksemburq, Malta, Moldova, Monako, Monteneqro, Hollandiya, Norveç, Polşa, Portuqaliya, Rumıniya, Rusiya, San-Marino, Serbiya, Slovakiya, Sloveniya, İspaniya, İsveç, İsveçrə, Türkiyə və Ukrayna idmançıları davam etdirdilər.

İdmançıların keçidini ev sahibi - Azərbaycan atletləri tamamladılar. Ölkəmiz Oyunlarda 291 idmançı ilə təmsil olunur. Onların keçidi Mənsum İbrahimovun ifasında "Qarabağ şikəstəsi" muğamı ilə müşayiət olunurdu. Üçrəngli bayrağımızı cüdo üzrə Avropa çempionu Elmar Qasımov aparırdı. Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva idmançılarımızı hərarətlə salamladılar.

Dünya şöhrətli müğənni Ledi Qaqanın ifası açılış mərasiminin vəd edilən sürprizlərindən biri oldu. O, piano arxasında əyləşərək "Imagine" ("Xəyal et") mahnısını ifa etdi. Müğənninin ifası hərarətlə qarşılandı və dəfələrlə alqışlandı.





Baku 2015
1 st EUROPEAN GAMES



Stadiona Avropa Olimpiya Komitəsinin (AOK) bayrağı gətirildi. Onu səhnəyə Avropanın müxtəlif ölkələrindən olan səkkiz Olimpiya çempionu - Namiq Abdullayev (Azərbaycan), Lüsi Dekosse (Fransa), Servet Tazegül (Türkiyə), Nikkolo Kampriani (İtaliya), Keti Teylor (İrlandiya), Tomas Bimis (Yunanıstan), Kristina Fazekas Zur (Macarıstan), Yelena Zamolodçikova (Rusiya) gətirdilər. AOK-un bayrağı Azərbaycan bayrağı ilə yanaşı ucaldıldı.

Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki və Azərbaycanın birinci xanımı, "Bakı-2015" Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva səhnəyə gəldilər.

*İlk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva çıxış etdi.*



# Mehriban Əliyevanın

*çıxışı*

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyev!

Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki! Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax!

Avropa Oyunlarının atletləri! Xanımlar və cənablar! Hörmətli qonaqlar!

Azərbaycana xoş gəlmisiniz. İlk Avropa Oyunlarına xoş gəlmisiniz.

Əziz həmvətənlər, Birinci Avropa Oyunlarının açılışı münasibətilə bütün Azərbaycan xalqını səmimi - qəlbdən təbrik edirəm.

Bu möhtəşəm bayram müstəqil Azərbaycanın, hər bir Azərbaycan vətəndaşının qələbəsidir. Müstəqillik illərində əldə etdiyimiz uğurlar və nailiyyətlər nəticəsində bu gün burada, gözəl Bakıda Avropa Olimpiya hərəkatının tarixində yeni səhifə yazılır. Bu səhifəni biz yazırıq, Azərbaycan xalqı yazır. Qoy, Tanrı Azərbaycanı hər zaman qorusun!

Əziz dostlar, bu axşam biz Avropanın idman tarixində yeni fəsilə başlayırıq. Azərbaycan fəxr edir ki, ilk Avropa Oyunları Bakıda keçirilir. Avropa Oyunlarının məşəli müqəddəs Atəşgah məbədində alovlandırıldı və yol boyunca hər bir azərbaycanlının qəlbini iftixar hissi ilə döyündürərək, ölkəmizi dolaşdı.

Məşəl bayram, ruhlandırma və birlik mesajını daşıdı. Məhz alovlanan ruh hamımızı bir araya gətirir.

Mən Avropa Olimpiya Komitəsinə və onun prezidenti Patrik Hikkiyə minnətdarlığımı bildirmək istəyirəm. Bu minnətdarlıq onun həm ilk Avropa Oyunlarının keçirilməsi üçün Bakının seçilməsinə, həm də yadda qalacaq belə bir tədbirin təşkilinə verdiyi dəstək və göstərdiyi yardım ilə bağlıdır.

Mən, həmçinin Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Baxı və Olimpiya ailəsinin üzvlərini salamlamaq istəyirəm. Azərbaycanda Olimpiya hərəkatına verdikləri davamlı dəstəyə görə onlara minnətdaram.

Azərbaycan zəngin tarixə, mədəniyyətə və adət-ənənələrə malik olan ölkədir. Multikulturalizm və tolerantlıq, dostluq və qonaqpərvərlik, ahəngdarlıq və həmrəylik Azərbaycanın həyat tərzinin ayrılmaz hissəsidir.

Bu il biz Avropa Oyunlarını keçiririk. 2017-ci ildə biz İslam Həmrəylik Oyunlarını qəbul edəcəyik. Bu, Azərbaycanın mədəniyyətlərarası dialoqun inkişafında oynadığı rolu nümayiş etdirir.

Müstəqil dövlət kimi biz gəncik. Cəmi 24 yaşımız var. Son 24 il ərzində ölkəmizdə sürətli inkişaf, irəliləyiş və müasirləşmə müşahidə olunub. Azərbaycanın iqtisadi sabitliyi və davamlı inkişafı bizə bu cür böyük idman tədbirini keçirmək imkanı yaradır.

İşə sadiqliyimiz və yorulmaz fəaliyyət sayəsində vaxtın məhdud olduğunu dəf edərək, bu Oyunları cəmi iki il yarım ərzində hazırladıq.

Mən Oyunları reallığa çevirmək üçün böyük səylə, sadiqliklə və istəklə çalışan şəxslərin hamısına təşəkkürümü bildirmək istəyirəm. Mən, həmçinin bütün beynəlxalq tərəfdaşlarımıza, bir çox yerli və xarici könüllülərə minnətdarlığımı bildirmək istəyirəm.

Komandamız qarşılıqlı əməkdaşlığın, anlaşma və dostluğun bariz nümunəsidir. Bu axşam biz Avropanın 6 min ən yaxşı atletini ölkəmizdə salamlayırıq.

Hörmətli atletlər, bu Oyunlar sizin üçündür. Siz ilk iştirakçısınız. Siz Avropa Oyunlarının ilk çempionları olacaqsınız. Bütün Azərbaycan xalqı sizə dəstək vermək üçün bir araya gəlib.

Bakı 17 gün ərzində sizin evinizdən uzaqda ikinci doğma eviniz olacaq. Bu axşam mən xalqımızdan, əldə etdiyimiz bütün nailiyyətlərdən fərəh və iftixar hissi duyuram. Mən bu Oyunlara qəlbən bağlandığınıza görə sizin hamınıza təşəkkürümü bildirirəm.

Onu da bildirirəm ki, gələn illərdə Avropa Oyunlarının məşəli nə qədər uzaqlarda alovlansa da, Azərbaycanın və "Bakı–2015"-in parlaq ruhunun atəşi orada olacaq.

Avropa Oyunlarının atletləri! Xanımlar və cənablar! Əziz qonaqlar! Sülhü, dostluğu və həmrəyliyi qeyd etmək üçün Bakıya, Azərbaycana xoş gəlmisiniz!

*Sonra Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki çıxış etdi.*



## Patrik Hikkinin

*çıxışı*

Axşamın xeyir Bakı! Axşamın xeyir Azərbaycan!

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyev!

"Bakı-2015"-in Təşkilat Komitəsinin sədri, birinci xanım Mehriban Əliyeva!

Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax!

Milli Olimpiya Komitələri Assosiasiyasının prezidenti şeyx Əhməd əl-Fahad Əl-Sabah!

Zati-aliləri dünya liderləri!

Beynəlxalq Olimpiya Komitəsinin üzvləri! Avropa Olimpiya ailəsinin üzvləri! Çox hörmətli qonaqlar! Bakıdan və bütün Azərbaycandan olan əziz dostlar! Qarşıdan gələn 17 günü canlandıracaq 12.500 könüllü!

Sağ olun! Çox sağ olun!

Bu, Avropa Olimpiya Komitəsinin tarixində ən fərəhləndirici məqamdır. Bu axşam burada Bakının yeni möhtəşəm Olimpiya Stadionunda biz Avropa idmanında tarixi məqamın şahidiyik, onu yaradırıq: İlk Avropa Oyunlarının açılışındayıq.

Bu axşam biz dünyanın Qitə Oyunlarına çatışmayan beşinci halqanı əlavə edirik. Avropanın ilk Oyunları sayəsində biz Olimpiya hərəkatının beş qitəsini bir-birinə daha sıx bağlayacağıq.

Prezident Əliyev, sağ olun, birinci xanım, Əliyeva sağ olun! Azərbaycan, sağ ol! Avropa Olimpiya ailəsini səmimi qəbul etdiyinizə görə sağ olun!

Birinci xanım Əliyeva, Sizin "Bakı-2015"-in Təşkilat Komitəsinin sədri kimi Avropa Oyunlarında oynadığınız rola sözlə qiymət vermək çox çətindir. Bu sahədə yorulmaz fəaliyyətinizə, Avropada idmanın parlaq gələcəyinə verdiyiniz töhfəyə görə Sizə minnətdaram. Siz bir dövlət kimi qürur doğuran yoldasınız. Bu yolda Sizinlə addımlamaqdan şərəf duyduq. Beynəlxalq ictimaiyyətin üzvü və Avropanın yeni idman paytaxtı kimi məqsədlərinizin həyata keçməsində iştirak etməkdən fərəh hissi duyduq.

İdman müsbət dəyişikliklər üçün nadir qüvvədir. Prezident Baxın idmanın universal qanunu hesab etdiyi dəyişikliyi qaçılmaz edən dəyərlərin yayılmasına çalışdıq. Qlobal etika, ədalət, hörmət və dostluq dəyərlərini yaydıq.

"Bakı-2015" uzun yolun ən vacib nöqtəsidir və çılğın arzudur. O, AOK-ın alovlanan iddiasıdır. Bu, Sizin üçün, Bakı üçün, Azərbaycan xalqı üçün indiki nəslə bir dəfə nəsib olan fürsətdir və sizlər onilliklər ərzində bu məkanların, bu sərmayənin və qlobal diqqətin bəhrəsini görəcəksiniz.

İdman və Olimpiya hərəkatının gənc dövlətinizin sürətli inkişafının mərkəzində durmasına daim səy göstərən Prezident Əliyevin və birinci xanım Əliyevanın qətiyyətli mövqeyi hazırlıq işlərimizin aparıcı qüvvəsi oldu.

Bu, sizə - nazir Azad Rəhimovun rəhbərlik etdiyi "Bakı-2015" Avropa Oyunlarının Əməliyyat Komitəsindəki 2000 əməkdaşa göstərilən etimaddır. Çünki onlar Oyunları cəmi 30 ay ərzində həyata keçirmək məqsədilə bu cür qətiyyət və peşəkarlıqla çalışdılar. Səylərinizə görə çox sağ olun.

*İndi isə mən şərəf hissi ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi "Bakı-2015" ilk Avropa Oyunlarını açıq elan etməyə dəvət edirəm.*





***Azərbaycan Respublikasının Prezidenti***

***İlham Əliyev***

***Birinci Avropa Oyunlarını açıq elan etdi.***





Beləliklə, ən həyəcanlı an gəlib yetişdi və birinci Avropa Oyunlarının məşəli alovlandı.

Yanan lövhə Yer, Günəş və Ayın bir araya gəldiyi möhtəşəm kosmik mənzərəni – tam Günəş tutulmasını xatırladırdı. Birlik və sülh rəmzi olan ilk Avropa Oyunlarının məşəli stadiondan səmaya ucaldı.

Bundan sonra səhnədəki mənzərə tamaşaçını Bakı sahilinə apardı, qarşıda Xəzər dənizi üzərində tədricən yaranan şaquli alov dairəsi canlandı və atəşfəşanlıq başladı.

Rəngbərəng fişənglər Xəzərin və Bakı Olimpiya Stadionunun üzərində səmanı bəzədi və möhtəşəm bayram mənzərəsi yaratdı.

Məşəl Oyunlar bitənədək yanacaq, şəhərimizin mayakı olacaq.

Atəşfəşanlığın qızğın vaxtında ifaçılar səhnə boyunca düzüldülər. Onlar əl-ələ verib Azərbaycan milli rəqsi "Yallı" oynadılar. Nar dənəsi rəngində 20 min şar tamaşaçıların üzərinə səpələndi. Bu "nar dənələri" sevgi nişanəsi, uğurun mücəssəməsi və Azərbaycanın rəmzidir.

Birinci Avropa Oyunlarının möhtəşəm açılış mərasimi başa çatdı.

Azərbaycan orijinallığı ilə diqqəti cəlb edən, tamaşaçıları vəcdə gətirən bir mərasimlə Avropa Oyunlarının tarixə çevriləcək ilk parlaq səhifəsini yazdı.



# XƏZƏR UNİVERSİTETİNİN TƏLƏBƏLƏRİ "AZƏRBAYCANIN TARİXİ - MEMARLIQ İRSİ GƏNCLƏRİN GÖZÜ İLƏ" RƏSM MÜSABİQƏSİNİN QALİBLƏRİ OLDULAR

**I YER**



**Aytac Hafizova**
*Xəzər Universiteti*

**II YER**



**Zöhrə Saatova**
*Azər Məmmədov adına 115 saylı məktəb*

**III YER**



**Lamiyə Müslümova**
*Xəzər Universiteti*

*Münsiflər heyətinin qərarına əsasən, Xəzər Universiteti Humanitar və sosial elmlər fakültəsinin birinci kurc tələbəsi Aytac Hafizova "Azərbaycan" adlı rəsm əsərinə görə I yerə, İqtisadiyyat və menecment fakültəsinin birinci kurs tələbəsi Lamiyə Müslümova "Şirvanşahlar sarayı" rəsm əsərinə görə III yerə layiq görüldülər. Bakının Binəqədi rayonundakı Azər Məmmədov adına 115 saylı məktəbin şagirdi Zöhrə Saatova "İçərişəhər" adlı rəsminə görə II yeri tutdu.*





Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyə dəstəyi, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, Xəzər Universiteti, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Dövlət İqtisad Universiteti, Gazelli Group şirkəti, Bakı Biznes Mərkəzi və İqtisadçı Tələbələrə Dəstək İctimai Birliyinin birgə təşkilatçılığı ilə may ayının əvvəllərində start götürmüş "Azərbaycanın tarixi - memarlıq irsi gənclərin gözü ilə" rəsm müsabiqəsi başa çatıb və qaliblər elan olunmuşdur.

Müsabiqənin əsas məqsədi yeniyetmə və gənclər arasında milli-mədəni irsimizin təbliğ olunması idi.





Mayın 9-da Xəzər Universitetinin Mədəniyyət mərkəzində universitetin müəllimi, tanınmış xalçaçı rəssam Afaq Kərimovanın rəhbərliyi ilə müsabiqəyə təqdim olunmuş rəsmlərin ilkin texniki qiymətləndirilməsi keçirilmişdi.











Mayın 22-də "Atropat" otelinin terrasında müsabiqə iştirakçılarının rəsm əsərləri nümayiş etdirilmiş, finala vəsiqə qazanmış iştirakçılar elan olunmuşdu. Finalçılar iştirakçılara xalq rəssamı Arif Hüseynov, "UASB" Azərbaycan Təmsilçiliyi Rəsm Komitəsinin sədr müavini, Azərbaycan Rəssamlar İttifaqının üzvü İlqar Əkbərov, əməkdar incəsənət xadimi, sənətşünas Ziyadxan Əliyev, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun nümayəndəsi Mübariz Qədirov, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət idarəetməsi və menecment kafedrasının dosenti İbrahimxəlil İbrahimov, Xəzər Universitetinin Xalça Muzeyinin müdiri Afaq Kərimova, Tofiq İsmayılov adına Uşaq-Gənclər Yaradıcılıq Sarayının İnnovativ layihələr üzrə direktor müavini, Təsviri Sənət Qalereyasının rəhbəri Kəmalə Cəfərzadə, Bakı Biznes Mərkəzinin direktoru Seyran Məmmədov, Gazelli Group şirkətinin nümayəndəsi Ülkər Xudiyeva və AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Arxeologiyada informasiya texnologiyalarının tətbiqi sektorunun rəhbəri Fuad Hüseynov tərəfindən təqdim olunmuşdu. Layihənin rəhbəri Turanə Zamanova, layihənin media üzrə koordinatoru Tura Əlisəfazadə çıxış edərək iştirakçılara minnətdarlıqlarını bildirmişlər.

Tədbirdə Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müdiri Roza Arazova iştirak etmişdir.

# "AZƏRBAYCANIN TARİXİ - MEMARLIQ İRSİ GƏNCLƏRİN GÖZÜ İLƏ"



Turanə Zamanova
*Layihə rəhbəri*



Arif Hüseynov
*Xalq rəssamı*



Ziyadxan Əliyev
*Əməkdar incəsənət xadimi*



İbrahimxəlil İbrahimov
*AR Prezidenti yanında DİA*



Roza Arazova
*Xəzər Universiteti*



Afaq Kərimova
*Xəzər Universiteti*



Tura Əlisəfazadə
*layihənin media üzrə koordinatoru*

İyunun 6-da Bakı Biznes Mərkəzində müsabiqənin final mərhələsi keçirildi. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun direktoru, tarix elmləri doktoru, professor Maisə Rəhimova, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, Rəssamlar İttifaqının katibi, xalq rəssamı Ağaəli İbrahimov, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında kafedra müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Firdovsiyyə Əhmədova, Gazelli Group şirkətinin ümumi məsələlər üzrə prezident köməkçisi Gülarə Əliyeva, rəssam-heykəltəraş Fərman Qasımov və Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun nümayəndəsi Ramin Cəfərovdan ibarət münsiflər heyəti tərəfindən qaliblər elan olundu.







Münsiflər heyətinin qərarına əsasən, Xəzər Universiteti Humanitar və sosial elmlər fakültəsinin birinci kurc tələbəsi Aytac Hafizova"Azərbaycan" adlı rəsm əsərinə görə I yerə, İqtisadiyyat və menecment fakültəsinin birinci kurs tələbəsi Lamiyə Müslümova "Şirvanşahlar sarayı" rəsm əsərinə görə III yerə layiq görüldülər. Bakının Binəqədi rayonundakı Azər Məmmədov adına 115 saylı məktəbin şagirdi Zöhrə Saatova "İçərişəhər" adlı rəsminə görə II yeri tutdu.





Münsiflər heyətinin üzvləri öz çıxışlarında tədbirin milli-mənəvi dəyərlərin qorunması kontekstində əhəmiyyətindən, gənc rəssamların təqdirəlayiq fəaliyyətindən söz açdılar.

Qaliblər layihənin sponsoru olan Gazelli Group şirkəti tərəfindən qiymətli hədiyyələrlə və AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun diplomları ilə mükafatlandırıldılar. Finala çıxmış bütün iştirakçılara Xəzər Universitetinin sertifikatları və hədiyyələri təqdim olundu.

Qalibləri təbrik edir, onlara yeni uğurlar arzulayırıq.



# KHAZAR UNIVERSITY STUDENTS AMONG WINNERS OF "HERITAGE OF AZERBAIJAN HISTORY AND ARCHITECTURE IN THE EYES OF YOUTH" ART COMPETITION




The "Heritage of Azerbaijan History and Architecture in the Eyes of Youth" Art Competition which began in May is supported by the Youth Fund of the President of the Azerbaijan Republic and its partners include the Archeology and Ethnography Institute of ANAS, Khazar University, the State Administration Academy of the President of Azerbaijan Republic, Azerbaijan State Economics University, Gazelli Group, Baku Business Center and the Public Union for Assistance to Economics Students. The main objective was to raise awareness about cultural heritage among youth.

On May 9th, the first technical evaluation of submitted works was carried out in Khazar University's Cultural Center under the leadership of well-known textile artist Afag Karimova.

On May 22nd, works were exhibited on the terrace of the Atropat Hotel and participants accepted to the final round were announced by Arif Huseynov, People's Artist of Azerbaijan; Ilgar Akbarov, member of the Azerbaijan Artists' Union and Deputy Chairman of the Art Committee of the Azerbaijan representation for International Artist Activists Association; Ziyadkhan Aliyev, art specialist; Mubariz Gadirov, representative of the Youth Fund of the President of the Azerbaijan Republic; Associate Professor Ibrahimkhalil Ibrahimov of the State Administration and Management Department of the State Administration Academy of the President of Azerbaijan Republic; Afag Karimova, Director of the Khazar University Carpet Museum; Kamala Jafarzade, director of the Fine Arts Gallery and Deputy Director of Innovative Projects at the Tofig Ismayilov Children's and Youth Creative Center; Seyran Mammadov, director of Baku Business Center; Ulker Khudiyeva, representative of Gazelli Group; and Fuad Huseynov, head of the Applied Information Technologies in Archeology Sector of the ANAS Archeology and Ethnography Institute.

Associate Professor Roza Arazova, Head of the Department of History and Archeology at Khazar University, also participated in the event.

On June 6th, the final round of the competition was held at Baku Business Center. Winners were announced by members of the jury, including Professor Maisa Rahimova, Director of the ANAS Archeology and Ethnography Institute; Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees; People's Artist Aghaeli Ibrahimov, Secretary of the Artists' Union; Associate Professor Firdovsiyya Ahmadova, Department Chair of the State Administration Academy of the President of the Azerbaijan Republic; Gulara Aliyeva, Assistant to the President for General Affairs of Gazelli Group; Farman Gasimov, sculptor; and Ramin Jafarov, Youth Fund representative of the Presidential Administration of the Azerbaijan Republic.

According to the jury's decision, first-year student of Khazar University School of Humanities and Social Sciences Aytaj Hafizova took 1st place with her painting "Azerbaijan;" and first-year student of the Khazar University School of Economics and Management Lamiya Muslimova took 3rd place with her work "Shirvanshahlar's Palace." Zohre Saatova, student of the School Number 115 named after Azer Mammadov of the Binagadi District, took 2nd place with "Icherisheher."

Jury members made speeches about the importance of the contest in the context of preserving national values as well as the young artists' praiseworthy works. At the end of the event, the winners were announced. Gazelli Group, sponsor of the project, gave valuable gifts to the winners. They were also given certificates from the Archeology and Ethnography Institute. All the participants in the final round were given certificates of appreciation and gifts from Khazar University. We congratulate all the winners and wish them further success.









## XƏZƏR UNİVERSİTETİ: FƏLSƏFİ-PSİXOLOJİ SÖHBƏTLƏR/SEMİNARLAR

8 NOYABR 2013, MƏRMƏR SALON

### HAMLET İSAXANLI: PLATON və SEVGİ FƏLSƏFƏSİ

*Sevgi və fəlsəfə*

Sevgi insanla yaşıddır. Poeziya, yəqin ki, sevgini tərənnüm etmək üçün yaranıb. "Müdrikliyə sevgi" sözü ilə tərif edilən fəlsəfə poeziyadan daha gənc, insanın insana sevgisindən isə müqayisəolunmaz dərəcədə çox gəncdir. Sevgi bəşəriyyətin böyük qəhrəmanları və zəka sahibləri, dahi sayılan insanları ilə sadə insanlar arasında fərq qoymur, hamını öz toruna salıb əsir edir, hamının gözünə işıq gətirib, hamını xəstələndirə bilir.

Sevgi təbiətin istədiyi, bizdən asılı olmayan möcüzədir. Sevgi bir tərəfdən aclıq və susuzluq kimi təbiidir, təbii ehtiyacdır. Təbiətin bu qanunu, qız-oğlan cazibəsi kiçik yaşlardan müşahidə olunur.Digər tərəfdən, sevgi təbiətin yaratdığı birlik fəlsəfəsinin əsasında dayanır; oğlan və qız, kişi və qadın birləşir, dünyaya yeni insan gəlir. Dünya insanlarla dolur, sevgi davam edir. Qarşılıqlı sevgi gözəldir, o,

dostluğun təməlində dayana bilir. Birtərəfli sevgi məyusluq gətirsə də, heyranlıq və gözəllik duyğusu sevənin həyatını mənalandırır, həyatına, uzun müddət olmasa da, işıq saçır.

Sevgi haqqında kişilər qadınlardan qat-qat çox yazmışlar, kişi şairlər və kişi filosoflar qadınlardan çox və (qadınlardan üzr istəyirəm) daha böyük və məshur olmuşlar. Bu baxımdan sevgi haqqında əsərlərdə sevginin mahiyyəti barədə birtərəfliliyin mövcudluğu, kişi görüşlərinin hökm etdiyi faktdır. Mişel Monten`in fikri başadüşüləndir: qadınlar qaydalara əməl etmək istəməyəndə günahları yoxdur, çünki qaydaları kişilər yazıb, üstəlik, qadınların rəyini soruşmadan.

Sevgi bəşəriyyətin böyük qəhrəmanları və zəka sahibləri, dahi sayılan insanları ilə sadə insanlar arasında fərq qoymur, hamını öz toruna salıb əsir edir, hamının gözünə işıq gətirib, hamını xəstələndirə bilir.

Sevgi haqqında, sevmək və sevilmək istəyənlər haqqında, gerçəklik və xəyal, cazibənin şirinliyi və eşqin dəlilikləri, sevmək qabiliyyəti, qısqanclıq, eşqin hər cür vəzifə və dəyərlərə meydan oxuması, eşqin bitib-tükənməz tərənnümü haqqında burada söhbət açmıram, əvəzində, oxumaq və həyəcanlanmaq həvəsində olsanız, "Sevgi və Poeziya" adlı yazıma baxmağı məsləhət görürəm (Azərbaycan Sevgi Poeziyası, Birinci kitab. Tərtibçi Hamlet İsaxanlı. Xəzər Universitəsi Nəsriyyatı, 2008; səh. 5-26).

Platon sevgi fəlsəfəsi üzrə dərin və gözəl fikirlər söyləmiş və bu barədə çox maraqlı bir əsər yazmış böyük yunan filosofudur. Bu sevgi fəlsəfəsini yaxından izləmək və müzakirə etmək üçün, düşünürəm ki, öncə Platonun həyatı, ideyaları və mühiti haqqında qısa məlumat verməK pis olmazdı.

### *Platonun həyatı*

Platon ("- 428/427" – "- 348/-347") Afinada kübar bir ailədə doğulmuş, yaxşı təhsil almış, musiqi və poeziya ilə yaxından maraqlanmışdır (bizim eradan əvvəlki bir tarixi, göstərmək üçün b.e.ə. kimi qısaltma əvəzinə mənfi işarəsi işlətməyə üstünlük veririk, məsələn, "b.e.ə. 428-ci il" əvəzinə "- 428" yazmaq fikrindəyik). 20 yaşında Sokrateslə yaxından tanış olmuş, bu tanışlıq onun maraqlarını və ümumiyyətlə həyatını dəyişmişdir. Platon əvvəl çox məşğul olduğu şeir və incəsənəti rədd etmiş, yazdığı şeirləri yandırmış, özünü elm və fəlsəfəyə həsr etmişdi. Deyilənə görə, Sokrates yuxusunda qu quşu görmüş, quş onun sinəsində oturmuş, sonra mahnı oxuyub yüksəklərə uçubmuş. Ertəsi gün Platonla rastlaşan Sokrates yuxunu yozaraq "bax budur mənim qu quşum" deyibmiş. Qeyd edək ki, rus dilində və onun təsiri ilə Azərbaycan dilində Sokrates`i qısaldıb "Sokrat" kimi yazırlar.

"-388/-387"-də (təqribən 2400 il əvvəl!) Platon başına yığdığı həmfikirləri və tələbələri ilə Afina yaxınlığındakı *Akademus* bağında riyazi və fəlsəfi problemlərlə məşğul olmağa başlamışdı. Bu hadisə Platon tərəfindən Akademiyanın təsis edilməsi kimi şərh edilir.

Platona aid edilən aşağıdakı sözlər Antik yunan dövrü , Sokrates və Platonun özü haqqında müəyyən fikir yarada bilir: "mən Tanrıya minnətdaram ki, barbar deyil, yunan olaraq doğulmuşam, kölə deyil, azad insan olaraq doğulmuşam, qadın deyil, kişi olaraq doğulmuşam, ən əsası isə odur ki, dünyaya Sokrates zamanında göz açmışam". "Yunanlar içində ən müdrik şəxs" olan (rəvayətə görə Delfoi kahini belə deyibmiş) Sokrates müdrikliyin və əxlaq fəlsəfəsinin zirvəsi sayıla bilən, filosofcasına həyat sürmüş və dünyadan filosof ölümü ilə getmiş gerçək, amma əfsanələşmiş bir şəxsdir. O, tələbəsi Platon`a məxsus əsərlərin baş qəhrəmanıdır; digər tələbəsi Ksenofon (Xenophon) da Sokratesə aid dialoqlar və xatirələr yazmışdır. Sokrates özü heç nə yazmayıb.

Sokrates (təqribən "- 470" – "- 399") öldürüldükdən sonra tələbələri müxtəlif yerlərə dağılışmış, bu zaman 28-29 yaşlı Platon Misirə getmiş, orada riyaziyyat öyrənmis, 4 il sonra Afinaya qayıtmışdı. Siyasətdə fəal rol oynamaq, heç olmazsa, bir hökmdar tərbiyə etmək cəhdləri boşa çıxmışdır. "-387"- ci ildə Platon yunan sivilizasiyasının mühüm mərkəzlərindən biri olan Magna Graecia`ya, yəni Siciliya və İtaliyanın cənubuna səfər etmişdir. O, Sirakuz hökmdarı 1-ci Dionisios`un sarayında yaşamış, lakin, görünür ki, hökmdarı şübhələndirdiyi üçün geri göndərilmişdi. Platon yolda Sparta tərəfdarlarına əsir düşmüş və kölə kimi satılmış, amma onu tanıyan biri tərəfindən azadlığa çıxarılmışdır. "-366"- cı ildə ikinci dəfə Sirakuza, bu dəfə 2-ci Dionisios`un sarayına getmiş, siyasi oyunlar onu müxalif duruma salmış, oranı yenə tərk etməli olmuşdu. Nəhayət "-361"- ci ildə 3-cü dəfə həmin saraya getmiş, bu dəfə daha da ağır vəziyyətə düşmüş, yaxınlıqdakı dostu, Tarento hökmdarı, istedadlı riyaziyyatçı və müsiqi nəzəriyyəçisi Arxitas`ın köməyilə xilas olmuşdu (deyilənə görə, Arxitas gəmi göndərib Platonu qaçırmışdı).

"-388/-387"-də (təqribən 2400 il əvvəl!) Platon başına yığdığı həmfikirləri və tələbələri ilə Afina yaxınlığındakı *Akademus* bağında riyazi və fəlsəfi problemlərlə məşğul olmağa başlamışdı. Bu hadisə Platon tərəfindən Akademiyanın təsis edilməsi kimi şərh edilir; Platon təqribən 40 il onun başçısı oldu. Akademiya qapısında "Həndəsəçi olmayan girə

bilməz" şüarının yazıldığı deyilir.

Platondan sonra Platonun seçimi ilə Akademiyaya onun bacısı oğlu olan filosof Speusippus başçılıq etmişdi. Platonun ən istedadlı tələbəsi olan Aristotel`in ("-384" – "-322") bundan incidiyi və Akademiyanı biryolluq tərk etdiyi və ya Aristotelin Platona qarşi "böyük-kiçik münasibətini pozduğu" və Akademiyadan bu səbəblə ayrıldığı deyilir. Müəllimlə yetişmiş tələbə arasında ideya ayrılığının güclənməsi də ayrılmağa təkan verə bilərdi. Bu barədə Aristotelin sözü məşhurdur: "Platon mənim dostumdur, amma həqiqət daha qiymətlidir". Aristotelin Akademiyanı və beləliklə müəllimi Platonu tərk etməsi haqqında Platonun fikri də maraqlıdır: "Aristotel dayçalar onları bəsləyən analarına təpik atan kimi məndən üz döndərdi, məni itələyib getdi" (Laertli Diogen). Aristotelin belə qərar verməsində Afina və Yunanıstanın digər bir çox yerində güclənməkdə olan anti-Makedoniya hissləri də müəyyən rol oynaya bilərdi (Aristotel Makedoniya idarəsində olan Stagira`da doğulmuş, atası saray həkimi olmuşdu).

Platonun əsərləri dialoq şəklindədir ("Sokrates`in Apologiyası" adlı məşhur əsəri istisnadır), hər dialoq öz ideyası və dramatizmi, maraqlı və güclü şəxsiyyətləri, ibrətamiz rəvayətləri ilə yadda qalan dramdır, bədii-fəlsəfi əsərdir.

### *Platonun əsas fəlsəfi ideyaları*

Platon fəlsəfənin, demək olar ki, bütün sahələrinə toxunmuş, sistemli nəzəriyyələr yaratmışdır. Adı Aristokles olan bu istedadlı şəxsin enlikürəkli (və ya genişalınlı?) olduğuna görə "geniş" mənası verən Platon ləqəbini aldığı deyilir. Bu böyük filosofa fəlsəfəni geniş əhatə etməsi baxımından da Platon, yəni Geniş adı vermək olardı. A.N. Whitehead`in geniş yayılmış bir sözü var: Avropa fəlsəfi ənənəsi Platona haşiyələr (qeydlər, şərhlər) silsiləsi kimi səciyyələndirilə bilər.

> Platon fəlsəfənin, demək olar ki, bütün sahələrinə toxunmuş, sistemli nəzəriyyələr yaratmışdır.

Platonun ideyalar nəzəriyyəsinə görə maddi dünya ikinci dərəcəlidir, gerçəkliyi əks etdirmir, var olan, mövcudiyyət ideyalardır. O, hər şeyi ideyaların müəyyən etdiyini irəli sürən idealizmin carçısıdır. Çoxlugu təmsil edən hər şeyin, hər adın (insan, çiçək) ideyası (tək bir ideyası!) var (insan ideyası, çiçək ideyası). Bu ideya birləşdiricidir. İnsan ölür, amma bəşəriyyət, insanlıq, insan ideyası yaşayır. Platonun varlıq fəlsəfəsi konkret insanı obyektiv varlıq deyil, varlığın surəti kimi qəbul edir; var olan insandır, insan növüdür. Konkret gözəl adam nisbidir, var olan gözəllikdir. Başqa sözlə desək, duyğularla qəbul edilən hər şey (məsələn, bir şəxsin gözəlliyi) dəyişir, hətta yox olur, ideya, bu halda gözəllik isə əbədidir. Riyaziyyatçının əsas ideyaları həndəsi fiqur və

ədədlərdir, yəni onun məşğul olduğu mücərrəd dairədir, mücərrəd düzbucaqlı üçbucaqdır, tək ədədlərdir, konkret, əllə çəkilən dairə, düzbucaqlı üçbucaq, 3 və ya 5 kimi konkret tək ədəd deyil.

Platona görə, əsas varlıq ruhdur və ruhun yüksək pilləsi olan ağıldır. Canlıların hər cür hərəkətlərinin – fiziki, düşüncə, hissi hərəkətlərinin qaynağı və prinsipi ruhdur. Səma cisimlərinin, kainatın özünün də ruhu və ağlı var (sonuncuya "aləm ruhu" deyir). Bədən insanın təbiətini əks etdirmir, ruhdur insanı müəyyən edən, bədən ölür, ruh isə ölümsüzdür. Platon özünün "bədən ruh üçün zindandır" fikrini sonralar xeyli yumşaltmış, bədəni müəyyən dərəcədə ruhun tabeçiliyinə vermişdi ("Timaios" dialoqu).

> Platona görə, əsas varlıq ruhdur və ruhun yüksək pilləsi olan ağıldır. Canlıların hər cür hərəkətlərinin – fiziki, düşüncə, hissi hərəkətlərinin qaynağı və prinsipi ruhdur.

Platon böyük, nəhəng siyasət filosofudur, "dövlət siyasəti necə olmalı", "hökmdar necə olmalı" kimi suallar Platonu hərtərəfli bir siyasət fəlsəfəsi və ideal dövlət nəzəriyyəsi yaratmağa apardı ("Dövlət", "Dövlət adamı", "Qanunlar"). Platona görə, dövləti filosoflar idarə etməli, hərbçilər qorumalı, sənətkarlar və əkinçilər isə maddi nemətlər yaratmaqla məşğul olmalıdırlar. Platonun siyasət fəlsəfəsində sosialist tipli idarəetmə və təhsil siyasəti mühüm yer tutur.

Platon təbiəti riyazi modellər əsasında öyrənməyin vacibliyini irəli sürmüşdü. Platona görə, bilik (bilgi) gizli mövcud olan (insanda, insanın ruhunda var olan, amma şüurunda olmayan) şeylərin xatırlanmasıdır.Biliyin məkanı başda, hisslərin məkanı ürək və qanda, arzunun, həvəsin (şəhvətin) qaynağı isə belin aşağı hissəsindədir.

### *"Simpozion" - "Ziyafət"*

Platona qədər yunan filosofları öz fəlsəfələrində sevgini xüsusi mövzu kimi araşdırmamış, ona aid tək-tük fikirlər söyləməklə kifayətlənmişlər. Yunan fizik-filosoflarından Empedokles Kainatda iki qüvvənin - Sevgi (philotes) və İxtilafın (və ya düşmənçiliyin, nifrətin, kinin; yunanca – neisos, ingiliscə - strife) əsas rol oynadığını deyir və Kainatın yaranmasını öncə hissəcikləri bir-birinə qovuşduran Sevgiyə bağlayır. Əvvəl tək qüvvə - Sevgi hakim olub. Sonra İxtilaf meydana gəlib. Sevginin hökm etdiyi ilk dövrlərdə İxtilaf kainatın ən ucqar yerlərində, asayişin bərqərar olduğu əsas Sferadan kənarda qalmışdı. Əbədi var olan

köklər (su, torpaq, hava, od) daimi birləşmədə və ayrılmadadırlar; birləşməni - Sevgi qüvvəsi, ayrılmanı isə İxtilaf qüvvəsi həyata keçirir. Sevgi fərqli olanları birləşdirir (amma, xüsusi hallarda, bənzər olanları da birləşdirə bilir). Sevginin gücü çox artanda İxtilaf meydana girir və tərsinə... Empodekles`in daxil etdiyi bu iki qüvvənin qarşıdurması Zərdüştlükdə və digər din və fəlsəfi cərəyanlarda geniş hallanan və daha dərindən işlənmiş Xeyir və Şərin mübarizəsi mövzusuna bənzəyir.

Platonun müasiri Sinoplu (kinik) Diogen isə sevgini işi-gücü olmayan adamların işi hesab edirdi.

Platonun sevgi fəlsəfəsi, əsasən, onun ən məşhur dialoqlarından biri olan "Simpozion"da inkişaf etdirilmişdir. "Simpozion" sevgi haqqında yazılmış ən gözəl əsərlərdən biri və cox güman ki, ən məşhurudur.

Platonun sevgi fəlsəfəsi ,əsasən, onun ən məşhur dialoqlarından biri olan "Simpozion"da inkişaf etdirilmişdır. "Simpozion" sevgi haqqında yazılmış ən gözəl əsərlərdən biri və cox güman ki, ən məşhurudur. Sevgini tərənnüm etdiyi bu dialoqda Platon həm də Sokrates`in maraqlı obrazını yaratmışdır. Platonun "Simpozion" əsərini mən psixoloqlar, filosoflar və yunan tarixi və mədəniyyəti ilə məsgul olanlar üçün icbari oxu siyahısına daxil edərdim.

Qədim yunancada ziyafət, məclis, qonaqlıq mənası verən "Simpozion" sözünü ingiliscəyə Simposium, fransızcaya Le Banquet, ruscaya Pir, türkcəyə Şölen kimi tərcümə etmişlər. Həmin sözdən törəyən Simpozium termini indi elmi fəaliyyət və digər məsələlərə aid böyük toplantılar, konfranslar mənasında işlənilir.

Hər şeydən öncə sizə Platonun öz fikir və şərhlərini anlatmağa, əsas fikirlərini çatdirmaga çalişacam. Əsərdə Sevgi və Sevgi tanrısı – Eros, əsasən, eyni məna daşiyırlar.

Agathon (Aqafon/Aqaton) adlı gənc şair facіə/tragediya yazmaq üzrə ilk zəfərini, yarışmada 1-ci yer tutmasını evində dostları və tanışları ilə, ünlü insanlarla, o cümlədən, Sokrates, məshur komediya yazarı Aristofanes, həmçinin Phaidros/Fedros, Pavsanias, həkim Eriksimaxos ilə bayram edir. Ziyafətdə sevginin nə olduğu barədə fikir söyləmək, danışmaq fikri ortaya atılır. Məclis üzvləri razılaşır və hər biri bu söhbətdə iştirak edir. Platon öz sevgi fəlsəfəsini, digər əsərlərində olduğu kimi, əsasən Sokratesin dili ilə nəql edir. Digərləri də dəyərli

fikirlər söyləyirlər. Aristofanesin söylədiyi rəvayət də kifayət dərəcədə maraqlıdır. Sonda məclisə daxil olan Afinanın məshur dövlət xadimi və sərkərdə Alkibiades (Afina düşmənləri ilə də əməkdaşlıq etmişdi) Sokratesin şəxsiyyəti haqqında maraqlı söhbət edir, açıqlamalar verir.

Əsərin formal quruluşu belədir: bir tanışı Apollodor`dan Sokrates`in iştirakı ilə sevgidən söhbət getdiyi ziyafət barədə danışmasını xahiş edir. Apollodor bu əhvalatın çoxdan baş verdiyini və onu həmin ziyafətdə iştirak etmiş Aristodem`dən eşitdiyini bildirir, həmçinin"Sokrates`dən soruşdum, əhvalatın danışılan kimi olduğunu təsdiq etdi" deyir. Beləliklə, Apollodor Aristodemin söylədiklərini yadına salmağa başlayır (Apollodor Sokratesin sadiq tələbələrindən biri olmuşdur).

Ziyafətə dəvət olunmuş Sokrates Aristodemi də dəvət edir. Evə yaxınlaşanda Sokratesdən ayrı düşən Aristodem içəri girir və tezliklə Sokratesin yolda gecikdiyi, bir yerdə dayanıb fikrə getdiyi xəbəri gəlir (bu, Sokrates`də bir adət imiş). Bir qədər sonra Sokrates də içəri daxil olur. Eriksimaxos məclisdə söhbətə üstünlük verməyi və mövzu olaraq Fedros`un sevgi tanrısı Eros`un nə üçün şairlər tərəfindən tərənnüm edilmədiyi fikrini yada salır və söhbəti bu istiqamətə yönəltməyi təklif edir. Sevgi haqqında danışmaq təklifi qəbul olunur.

"Ziyafət" haqqında söhbətimizi aşağıdakı plan üzrə davam etdirəcəm: 1) Sevgi haqqında dörd məclis üzvünün fikirləri, 2) Aristofanesin söylədiyi rəvayət, 3) Sokratesin dili ilə canlandırılan sevgi fəlsəfəsi və 4) Sokratesin şəxsiyyəti barədə qısa söhbət.

### *Sevgi nədir? Sevginin dörd tərənnümü*

**Fedros** (Phaedros): Sevgi (Eros - Sevgi tanrısı) ən qədim hissdir (tanrıdır), əvvəl Yer, sonra sevgi yarandı, Hesiod da belə yazıb. Gənc üçün sevməkdən, sevilməkdən ləyaqətli heç nə yoxdur. Gözəl yaşamağın ən yaxşi müəllimi sevgidir; sevgi ayıb olandan utanmaq, gözəl olana can atmağı öyrədir – bunlarsız nə dövlət, nə hər hansı insan böyük və xeyirli işlər görə bilməz. Sevənlər bir olanda onlar təhlükə qarşısında möhkəm, dəyanətli olurlar, bir-birini heç vaxt darda qoymurlar. Bir-biri uğrunda ölümə ancaq sevənlər gedə bilərlər. Sevgi uğrunda ölüm şərəfli ölümdür.

Sevgi (Eros - Sevgi tanrısı) ən qədim hissdir (tanrıdır), əvvəl Yer, sonra sevgi yarandı.

**Pavsanias** (Pausanias): İki cür sevgi (iki cür Afrodita ilə bağlı) var: bayağı və səmavi/ilahi. Bir iş öz-özlüyündə gözəl və ya çirkin olmur, iş gözəl həyata keçirilirsə gözəl, pis həyata keçirilirsə çirkin olur. Sevgi də belədir. Bayağı sevgidə nə desən var, bu sevgi bədən istəyidir, ruh deyil. Bu sevgi öz ehtirasını öldürməkdir, bu cür sevən öz ehtirasını öldürüb aralanacaq, öz vədlərini unudacaq. Yüksək mənəvi dəyərə görə sevən isə ömrü boyu vəfalı olacaq, çünki

Yüksək mənəvi dəyərə görə sevən ömrü boyu vəfalı olacaq, çünki sevdiyi insana sabit bir hisslə bağlıdır.

On June 10th, Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, visited Justice Academy of Turkey. He met with Yilmaz Akcil, the President of the Academy, and Mustafa Artuc, Vice President. They discussed ideas for mutual cooperation between Khazar University and Justice Academy of Turkey.

---

## TƏSİSÇİ YÖK-DƏ

İyunun 10-da Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Türkiyənin Yüksek Öğretim Kurulu (YÖK) başkanlığında oldu. Başkan vəkili professor Dr. Yavuz Atar, həmçinin Baş katib Süleyman Necati Akçeşme ilə görüşdü. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə edildi.

## FOUNDER VISITS YÖK

On June 10th, Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, visited the Higher Education Council of Turkey. He met with Prof. Dr. Yavuz Atar, the Vice President of the Council, and Suleyman Necati Akcesme, the Secretary General. They discussed issues of mutual interest.

## NEFT MÜHƏNDİSLİYİ DEPARTAMENTİNİN MÜDİRİ SCHLUMBERGER ŞİRKƏTİNİN TƏLİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Xəzər Universiteti Neft mühəndisliyi departamentinin müdiri Qəşəm Zeynalov Qazaxıstanın Astana şəhərində Schlumberger və NEXT şirkətlərinin təşkilatçılığı ilə mayın 18 - 22-də keçirilən "Petrel proqram təminatının əsasları və Petrel geologiya" kursu üzrə təlimdə iştirak etmişdir. Təlim bu il aprelin 9-da Xəzər Universiteti və Schlumberger şirkəti arasında "Kompüter proqram təminatları üzrə konsultasiya xidmətləri göstərilməsi haqqında" çərçivə müqaviləsi əsasında həyata keçirilirdi.



Petrel
Shared earth–critical insight
Schlumberger
is pleased to present this
Petrel Fundamentals and Petrel Geology Combined Course
Certificate to
Gasham Zeynalov
who successfully completed the course in Astana, Kazakhstan on 22 May 2015
Yelizaveta Maximenko, Instructor
NEXT
Schlumberger

Kursun birinci hissəsi Petrelin tətbiqi ilə neft və qaz yataqlarının geologiyası, geofizikası və işlənməsi üzrə layihələrin yerinə yetirilməsində məlumatların daxil edilməsinə, onların qrafik formatda vizualizasiyasına, qridlərin və səthlərin yaradılması ilə geometrik modellərin qurulmasına həsr edilmişdi. Burada quyu və müxtəlf geoloji-geofiziki məlumatların daxil edilməsi qaydaları və onların 2D və 3D pəncərələrində vizualizasiyası, seysmik məlumatların emalı və 2D, 3D ölçülərində vizual görüntülərinin yaradılması və sonra isə stratiqrafik səthlərin qurulması ilə geometrik modellərin qurulması həyata keçirildi.

Kursun ikinci hissəsi isə Petrelin tətbiqi ilə neft və qaz yataqlarının kəşfiyyat və hasilat proqramı üzrə quyuların karotaj məlumatlarının redaktə edilməsi, interpretasiyası və korelyasiyasına, müxtəlif tipli geoloji-geofiziki xəritələrin qurulmasına və neft-qaz resurslarının həcminin hesablanmasına həsr edilmişdi.

Hər iki hissə üzrə çoxsaylı məsələlər həll edildi və layihələr işləndi. Q. Zeynalov kursu müvəffəqiyyətlə bitirərək, təlimin sonunda sertifikatla təltif edildi.

Təlim Schlumberger şirkətinin geologiya-geofizika üzrə mütəxəssisi Yelizaveta Maksimenko tərəfindən aparılmışdır.

Bu təlimim keçirilməsində məqsəd Schlumberger şirkətinin Xəzər Universitetinin Neft mühəndisliyi departamentinə hədiyyə etdiyi Petrel kompüter proqram təminatının Neft mühəndisliyinin bakalavriat proqramı üzrə "Ümumi geologiya", "Neft geologiyası" kurslarının və magistratura proqramı üzrə "Neft və qaz geologiyası və geofizikası" kursunun tədrisi prosesində praktiki dərslərə və aparılan elmi-təqiqat işlərində tətbiq edilməsidir.

## XƏZƏR UNİVERSİTETİNİN MÜƏLLİMİ BEYNƏLXALQ SİMPOZİUMDA

Mayın 25-26-da Türkiyənin İstanbul şəhərində 29 Mayıs Universitetinin təşkil etdiyi "Osmanlı İstanbulu" adlı III beynəlxalq simpozium keçirildi. İki gün davam edən simpoziumda Xəzər Universitetinin dillər və mədəniyyətlər, fars dili müəllimi dr. Zivər Hüseynli iştirak etdi.

Zivər Hüseynli "Osmanlı İstanbulunda Səfəvi ədibləri" adlı məruzə ilə çıxış etdi.

## KHAZAR UNIVERSITY INSTRUCTOR AT INTERNATIONAL SYMPOSIUM

On May 25-26, 2015, the III International Symposium on "Ottoman Istanbul" was held in Istanbul by 29 Mayis University. Dr. Zivar Huseynova, Persian language instructor at Khazar University's Department of Languages and Civilizations, gave a lecture at the symposium on "Safavid Writers in Ottoman Istanbul" during the two-day event.

## ESFIDIP TEMPUS LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ 5 NÖMRƏLİ RESPUBLİKA XÜSUSİ İNTERNAT MƏKTƏBİNDƏ GÖRÜŞ

Mayın 27-də Xəzər Universiteinin nümayəndələri Rima Məmmədova (layihə koordinatoru), Mələk Kərimova (Humanitar və social elmlər fakültəsinin dekan müavini) və Azərbaycan Respublikası Təhsil Nazirliyinin nümayəndəsi Anar Xələfov (Sosial işin təşkili və statistika şöbəsinin müdiri) "Əlilliyi olan şəxslərin Azərbaycan ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması" (ESFIDIP) adlı Tempus layihəsi çərçivəsində sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli Respublika xüsusi internat məktəbində oldular.

Görüşdə təxminən məktəbin yetmişə yaxın müəllim və şagirdi iştirak edirdi. Məktəbin direktoru İradə Vəzirova görüşü açaraq, qonaqları təqdim etdi və layihənin əhəmiyyətindən danışdı. Təhsil Nazirliyinin nümayəndəsi A. Xələfov inklüziv təhsillə əlaqədar dövlət səviyyəsində görülən işlər barəsində məlumat verdi və "Əlilliyi olan şəxslərin Azərbaycan ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması" (ESFIDIP) adlı Tempus layihəsinin bu sahədə mühim addımlardan biri olduğunu qeyd etdi.

Sonra layihə koordinatoru Rima Məmmədova layihə haqqında geniş təqdimatla çıxış etdi, ali təhsil müəssisələrində təhsil almağın önəmi haqqında danışdı, layihənin məqsədi, indiyədək görülmüş və gələcəkdə görüləcək işlər haqqında məlumat verdi. Layihənin əsas hədəf qrupu – əlilliyi olan şəxslərin layihənin partnyor universitetlərində təhsil almaları üçün yaradılmış şəraitdən və xidmətərdən danışdı. Məktəbin müəllimi Əsəd Hümbətov inklüziv təhsilin önəmi barədə danışdı və onun ibtidai sinifdən başlanmalı olduğunu qeyd etdi.

Təqdimatın sonunda müəllim və şagirdlərin suallarına cavab verildi və layihənin broşürü paylandı.

## MEETING OF ESFIDIP TEMPUS PROJECT IN BOARDING SCHOOL NUMBER 5

On May 27, Rima Mammadova (Project Coordinator), Melek Karimova (Assistant Dean of the School of Humanities and Social Sciences) and Anar Khalafov (Head of the Division for Statistics and Organization of Social Work of the De-institutionalization and Children's Defense Department of the Ministry of Education) visited Private Boarding School number 5 for disabled children as part of the "Establishment of a Foundation for the Integration of Disabled People into HEIs of Azerbaijan" (ESFIDIP) TEMPUS project.

Around 70 teachers and students participated in the meeting. Irada Vazirova, School Director, opened the meeting, introducing the guests and speaking about the significance of the project. A.Khalafov spoke about current government projects on inclusive education and noted that the "Establishment of a Foundation for the Integration of Disabled People into HEIs of Azerbaijan" (ESFIDIP) TEMPUS project is a key step.

Then Rima Mammadova, Project Coordinator, made a detailed presentation about the project, speaking about the importance of higher education, the objectives of the project, and its progress and remaining tasks. She explained the project's work and services to pave the way for its target group, disabled people, to be educated in higher education institutions. Asad Humbetov, teacher at the school, also spoke about the importance of inclusive education, especially beginning from elementary school.

At the end of the event, instructors' and students' questions were answered and a project brochure was distributed.

## "ELM ÜÇBUCAĞI" PROQRAMININ NÖVBƏTI VERILIŞI

İyunun 14-də İctimai TV-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının "Elm üçbucağı" proqramının növbəti verilişi oldu. Veriliş "Zaman" mövzusuna həsr olunmuşdu.

Verilişdə Universitetin əməkdaşları da dinləyici qismində iştirak edirdilər.

## GÜRCÜSTANDA MƏKTƏB TƏDBİRİNDƏ

İyunun 1-də Gürcüstan Respublikasının Qardabani rayonunun Kosalı kəndində 1965-ci ildə Kosalı orta məktəbindən məzun olmuş şəxslərin bir-birilə və ictimaiyyətlə görüşü keçirildi. Məzunlar arasında həmin məktəbi qızıl medalla bitirmiş Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı da vardı.

Görüşdə H.İsaxanlı əsas məruzəçi kimi çıxış etdi.

## "ŞƏXSİYYƏT VƏSİQƏSİ" VERİLİŞİNDƏ

İyunun 1-də ANS TV-nin "Şəxsiyyət vəsiqəsi" proqramında Mirzə Fətəli Axundova həsr olunmuş müzakirədə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı da iştirak etmişdir.



## "POTENSİAL MƏKTƏB DİREKTORLARI" LAYİHƏSİNİN İŞTİRAKÇILARI ÜÇÜN NÖVBƏTİ SEMİNAR

İyunun 5-də "Potensial məktəb direktorları" layihəsi çərçivəsində növbəti seminar keçirildi. Hər həftənin cümə günləri təşkil olunan seminarın budəfəki qonağı Xəzər Universitetinin Tədris işləri üzrə prorektoru professor Məhəmməd Nuriyev idi. M. Nuriyev iştirakçılara vaxtın səmərəli idarə olunmasından, bu sahədə dünya təcrübəsindən, uyğun taktikalardan danışdı.

İştirakçılar tərəfindən maraqla qarşılanan məruzədən sonra müzakirə keçirildi və suallar cavablandırıldı.

## "XƏZƏR"İN MÜƏLLİMİ TÜRKİYƏ UNİVERSİTETİNDƏ SEMİNAR KEÇİRDİ

İyunun 3-də Xəzər Universitetinin əməkdaşı dosent Zülfiyyə Sadıqova-Yakarışık Türkiyə Cümhuriyyəti Giresun Universitetinin təşkilatçılığı ilə Güre kampusunun Konfrans salonunda seminar keçirdi.

Azərbaycanda özəl və dövlət universitetlərinin musiqi ilə bağlı tarixçələrinin müzakirə edildiyi seminarda hazırda tədris olunan bölmələr və musiqi alətləri slayd və video görüntülərlə ətraflı təqdim olundu.

Həm də bir piano ifaçısı olan Z. Sadıqova-Yakarışıkın Giresun Universiteti Dövlət Konservatoriyasının müəllimi Ceren Demirok ilə birlikdə təqdim etdiyi konsert tamaşaçıların rəğbətini qazandı.

Giresun Universitetinin akademik və idarə heyəti ilə birlikdə tələbələrin də iştirak etdiyi proqramın sonunda həmin günə xatirə olaraq hazırlanmış təşəkkür plaketini Giresun Universiteti Dövlət Konservatoriyasının direktoru dosent Vasıf Hasanoğlu Z. Sadıqova-Yakarışıka təqdim etdi.

Bu haqda əlavə məlumat almaq üçün bu linkə daxil ola bilərsiniz:

*http://www.giresun.edu.tr/index.php?id=166&tx_ttnews%5Btt_news%5D=3251&cHash=fd353996093df9b2ac7da37c62cac149*

*Gi de Mopassan*



# Sən təltif olunmusan!

*(Hekayə)*

Bütün insanlar bu dünyaya fərqli bir missiya və şakərlə gəlirlər, bəzən isə bu ömürlük istək insanın atdığı ilk addımda, çıxartdığı ilk qığıltıda özünü büruzə verir.

Lap uşaq yaşlarından cənab Sakremanın ən ülvi arzusu – orden almaq idi. Tay-tuşları başlarına hərbi kepkalar qoyduqları vaxtda o, yaxasına qurğuşundan hazırlanmış Fəxri leqion xaçı taxar, küçədə anasının əlindən tutub yeridiyi zaman balaca köksünü şəstlə qabardardı ki, sinəsindəki qırmızı lenti və metal ulduzu hamı görə bilsin.

Dərslərini zəif oxuduğu üçün o, bakalavr imtahanlarından keçmədi. Özünə uyğun bir iş-güc tapmadığından və sırf sərvəti imkan verdiyindən yaraşıqlı bir qızla evləndi. Özünü tutmuş bütün burjualar kimi, onlar da Parisdə yaşayır, öz təbəqələrindən olanlarla oturub-durur, qara camaata əsla qaynayıb-qarışmırdılar, günün birində nazir ola biləcək deputatla və şəhərin iki ayrı polis şöbəsinin rəisiylə tanışlıqlarıyla oturub-durub öyünürdülər.

Özünü dərk etdiyi ilk günlərdən ağlına batan bu istək cənab Sakremana heç cür rahatlıq vermirdi və o, köksünü al qırmızı rəngli, xırda lentlə bəzəyə bilmədiyi üçün dərin iztirab çəkirdi.

Bu ordenə layiq görülmüş şəxslərlə bulvarda rastlaşanda onun ürəyi sancırdı. Onları aşkar həsəd hissiylə, çəpəki baxışlarla süzürdü o.

Gündüz yeməyindən sonrakı bekarçılıq saatlarında o, bəzən belələrini saymağa girişir, öz-özünə deyirdi: "Görüm hələ bu Madlen kilsəsindən Druo küçəsinə çatana qədər bunların neçəsinə rast gələcəyəm?"

Ağır addımlarla irəliləyirdi ki, kostyumların yaxasındakı o xırda, qırmızı nöqtəni öz iti baxışlarıyla ayırd eləyə bilsin. Bu gəzintinin sonuna doğru rastına çıxan orden sahiblərinin sayı onu heyrətə gətirirdi:

"Səkkiz zabit və on yeddi süvari! Ancaq bu xaç ordenlərini bu cür sağa-sola paylamaq da olmaz ki! Yaxşı, indi də baxaq, görək, geriyə dönəndə bunların neçəsiylə rastlaşacağıq?"

Dönüşdə təmkinlə yeriyirdi və insan tünlüyü hesablamalarına əngəl törədəndə onun qanı qaralırdı, çünki kimi isə hesaba qatmamaqdan çəkinirdi. Belələrinin daha çox hansı məhəllələrdə dolaşdığını yaxşı bilirdi: bu adamlar Pale-Royalda qaynaşırdılar, Sülh küçəsiylə müqayisədə Opera avenyusunda bunlarla tək-tük rastlaşırdı. Sol cinahdansa bu ordenlilər bulvarın nədənsə sağ cinahına üstünlük verirdilər. Belə görünürdü ki, onların sevimli kafe və teatrları var idi. Hər dəfə səkinin tən ortasında toplaşan və gələn-gedənə mane olan bir dəstə çalsaç kişini görən kimi cənab Sakreman qət edirdi: "Bunların Fəxri legion ordenli zabitlər olduğuna heç şübhəm yoxdur!" Yanlarından keçərkən onlara təzim etmək keçirdi içindən. Süvarilərlə müqayisədə zabitlərin fərqli qamətə malik olduqlarına o, çoxdan diqqət yetirmişdi. İctimaiyyət arasında onların daha böyük nüfuza və çəkiyə malik olduğu sezilirdi.

Ancaq bəzən bu mükafata layiq görülənlərə qarşı cənab Sakremanın içində qəzəb və hiddət hissi baş qaldırırdı, onlara duyduğu nifrət də bir sosialistinkindən əsla fərqlənmirdi. Baqqal dükanının vitrininə düzülən ləziz yeməklər qarnı ac yoxsulu necə rəncidə edirsə, o da bu ordenləri görüb, sinirlənir və evə dönən kimi uca səslə deyirdi:

– Axı, bu yaramaz hökumətdən görəsən nə vaxt yaxamız qurtulacaq?

Arvadı heyrətlə soruşurdu:

– Sənə nə olub bu gün?

O da dillənirdi:

– Addımbaşı rastlaşdığım haqsızlıqlara mən göz yuma bilmirəm! Ax, o kommunarlar necə də haqlıymışlar!

Şam yeməyindən imtina edərək, təkrar evdən çıxırdı ki, ordenlərlə dolu vitrinlərə göz gəzdirsin. Müxtəlif biçimlərə malik, al-əlvan rəngli bütün emblemləri maraqla süzürdü o. Ürəyindən keçirdi ki, kaş bunların hamısına layiq görüləydi və nəhəng bir zalda keçirilən hansısa təntənəli ziyafətdə, hamıdan öndə gedərkən onun bütün yaxası sıra-sıra orden və medallarla dolu olaydı, o isə ətrafında yaranan o heyranlıq və pərəstiş dolu pıçapıçlar pərdəsini eynilə bir günəş kimi, əzəmətlə, qoltuğunda tutduğu yaylı silindriylə yarıb, keçəydi. Ancaq, təəssüf ki, ordenə layiq bir xidməti yox idi onun.

Öz-özlüyündə belə fikir yürüdürdü: "İctimai vəzifə tutmayan bir şəxsin Fəxri legion orfeni alması imkansızdır. Bəlkə, mən Akademiyaya üzv seçilməyə cəhd göstərim?"

Ancaq bu işə necə girişəcəyini də bilmirdi. Arvadıyla bu barədə

məsləhətləşəndə qadın soruşdu:

– Akademiya üzvlüyünə? Ancaq sənin bu sahədə hansı xidmətin var ki?

Cənab Sakreman özündən çıxdı:

– Nə dediyimi sən başa düşmürsən! Mən də elə bilmək istəyirəm ki, bundan ötrü neyləyim, axı?! Arada tamamilə dilbilməz olursan sən!

Arvadı gülümsündü:

– Yaxşı, deyək ki, mən dilbilməzəm! Ancaq mən də buna bir çarə bilmirəm, axı!

Kişinin ağlına fikir gəldi:

– Bəlkə, sən o deputat Rosselenlə bir danışasan? O, bizə ağıllı məsləhət verər... Başa düş, mənim bu xüsusda ona ağız açmam yaxşı çıxmaz... Həm müşkül, həm də incə məsələdir bu... Ancaq sənin bundan söz salman yersiz görünməz...

Xanım Sakreman ərinin xahişinə əməl elədi. Rosselen məsələni nazirlə müzakirə edəcəyinə söz verdi. Sakreman hər imkanda məsələnin nə yerdə qalmasıyla onu dəngəsər eləmişdi lap. Axırda deputat dedi ki, bundan ötrü o, öz elmi xidmətlərini sadalamalı və yazılı təqdimatla müraciət etməlidir.

Sözə bax ha, "xidmətlər"ini sadalamaq"! Halbuki o, heç bakalavr da deyildi.

Ancaq bir yerdən başlamaq lazım gələcəkdi və Sakreman: "Xalqın təhsil hüququ barədə" bir broşür yazmağa girişdi. Ancaq düşüncəsi o dərəcədə qıt idi ki, bu işi bitirə bilmədi. Nisbətən asan mövzu axtarmağa başladı və gah bu, gah o mövzuda özünü sınadı.

Birinci mövzu beləydi: "Uşaqlara əyani vəsaitlərlə dərs verilməsi". O, tələb edirdi ki, yoxsul məhəllələrdə uşaqlar üçün pulsuz teatr tamaşaları göstərilməlidir. Valideynlərinin lap erkən yaşda uşaqlarını oraya aparması sayəsində, həm də sehirli fənərin işığında uşaqlar insanlıq tarixi barədə ən müxtəlif mövzuda və ilkin bilgilər ala bilərdilər. Səhnədə gördükləri uşaqların beynini işıqlandırar, orada dərin iz buraxardı, bu sayədə elm onlar üçün bir növ əyaniləşərdi.

Ümumi tarixi, coğrafiyanı, anatomiyanı, və sairəni və ilaxırı bu yolla tədris etməkdən asan hansı üsul vardı?

Məqaləni bitirib, çap etdirdi, ondan hər deputata bir nüsxə, hər nazirə on nüsxə, ölkə prezidentinə yüz nüsxə, Parisdə çıxan qəzetlərin redaksiyaların hərəsinə on nüsxə, əyalət qəzetlərinin redaksiyalarına beş nüsxə göndərdi.

Sonra isə küçə kitabxanaları ideyası üzərində baş sındırmağa başladı və hökumətdən tələb elədi ki, xırda arabalarda apelsin daşındığı kimi, kitab daşınması da təmin olunsun. Abonement üzrə bir su ödəyən sıravi vətəndaş bu sayədə ayda on cild kitab oxumaq imkanı qazanacaqdı.

Cənab Sakreman yazırdı:

"Xalq, sadəcə, əyləncələrə həvəs göstərir. Əgər o, biliyə can atmırsa, onda qoy bilik onun ayağına gəlsin" və sair, və ilaxır.

Çalışmaları heç bir səs-küy, maraq oyatmasa da, o, özü barədə təqdimat

verdi. Aldığı cavab məktubunda deyilirdi ki, təqdimatı qəbul olunub və onun çalışmalarının mahiyyəti araşdırılacaq. O, özünü inandırdı ki, uğurun lap astanasındadır. Nə qədər gözləsə də, heç bir cavab almadı.

Durum belə olanda yenə özü əl-ayağa düşdü. Xalq təhsili nazirinin qəbuluna yazıldı, nazir köməkçilərindən yaşca cavan olanı onu qəbul elədi. Bu adam özünü tox və ciddi tuturdu, eynilə fortepianoda çalarmış kimi qarşısındakı sıra-sıra düzülən ağ düymələrə basaraq, giriş otağındakı qapıçını və ya kuryeri, ya da sıravi məmurları yanına çağırıb, buyruqlar verirdi. Sakremanı dinləyəndən sonra ona bildirdi ki, işləri yolunda gedir və o, öz dəyərli çalışmalarına eyni şəkildə davam etməlidir.

Beləcə, cənab Sakreman təkrar fəaliyyətini canlandırdı.

Deyəsən, deputat Rosselen indi onun uğurlarıyla yaxından maraqlanırdı və ona xeyli ağlabatan, karlı təklif vermişdi. Yeri gəlmişkən, Rosselen özü də həmin ordenlə təltif olunmuşdu və bunu hansı xidmətlərinə görə aldığı heç kəsə bəlli deyildi.

Cənab Rosselen araşdırmaq üçün ona bir neçə yeni mövzu vermiş, onu elmin qaranlıq qatlarını araşdıran elmi qurumlara təqdim etmiş, onların rəğbətini qazanmasına şərait yaratmış, nazirlikdə ona himayədarlığa başlamışdı.

Son aylar boyu Rosselen qəhvəaltı və axşam yeməyi üçün onun evinə gəlirdi. Bir gün yenə onlara gələrkən deputat öz dostu Sakremanın əlini sıxarkən onun qulağına pıçıldadı:

– Sizin üçün şərəfli bir tapşırıq tapmışam: Tarixi araşdırmalar komitəsi sizinlə əməkdaşlıq edəcək və siz Fransanın müxtəlif kitabxanalarında araşdırmalar aparacaqsınız.

Dərin həyəcana qapılan Sakreman nə bir şey yeyə, nə də içə bildi.

Bir həftə sonra yola çıxdı. Bir şəhərdən digərinə yollanaraq, o, kataloqları araşdırır, çardaqlarda toza batmış cildləri eşələməklə orada çalışan kitabxanaçıları boğaza yığırdı.

Bir axşam Ruanda ikən o, son bir neçə həftə boyu üzünə həsrət qaldığı arvadını qucmaq üçün evinə baş çəkmək fikrinə düşdü. Axşam saat doqquzda qatara mindi ki, gecəyarı evinə çata bilsin.

Giriş qapısından öz açarı vardı onun. Sevincdən titrəyərək, səssizcə evə girərkən xanımını hədsiz heyrətləndirəcəyini sanırdı. Yataq otağının qapısı içəridən kilidlənmişdi. İşə bax da! O, səslənməyə məcbur oldu:

– Janna, aç, mənəm.

Görünür, qadın yamanca qorxmuşdu. Onun yataqdan necə sıçradığı, yuxuluymuş kimi, öz-özünə nələrsə danışdığı, sonra tualetə qaçıb, ardınca qapını çırpdığını, ayaqyalın ora-bura vurnuxduğunu, irəli-geri çəkdiyi şkafın şüşələrinin necə şaqqıldadığını eşitməkdəydi əri. Ən nəhayət, qadın soruşdu:

– Sənsən, Aleksandr?

Kişi dilləndi:

– Hə də. Aç qapını görüm!

Qapını açan kimi özünü onun qolları arasına yıxıb, dedi:

– Dəhşətsən ey! Heç gözləmirdim! Əcəb məni sevindirdin!

Həmişəki kimi kişi səliqəylə əyin-başını soyunmağa başladı. Stulun başındakı paltonu asmaq üçün kandardakı asılqana tərəf aparanda heyrətdən dondu: onun yaxalığında qırmızı lent vardı.

Donquldandı:

– Bu ordenli palto... haradan çıxdı?

İrəli şığıyan arvad kişiyə çımxırdı:

– Yox, sən səhv görmürsən... Ver bəri onu! Ancaq kişi paltonun qolunu buraxmadı və çaşqın halda bayaqkı sualını təkrarladı:

– Bu nədir belə? Niyə, axı? Məni bir başa salsana! Kimin paltosudur bu?.. Mənimki deyil, çünki yaxasında Fəxri legion ordeni var.

Heç nəyə məhəl qoymayan qadın paltonu dartıb, onun əlindən aldı və çaşqın halda dedi:

– Qulaq as, bir dəqiqə, onu mənə ver! Bunu hələlik sənə deyə bilmərəm... Bu, sirrdir... Sözə bax da!

Kişini qəzəb hissi bürüdü və rəngi avazıdı:

– Bunun kimin paltosu olduğunu bilmək mənim haqqımdır! Çünki mənimki deyildir!

Qadın ona bağırdı:

– Yox, səninkidir... Sussana... Ancaq and iç ki, kimsəyə bir şey deməyəcəksən... Qulaq as... deməli, belə... Sən təltif olunmusan!

Qapıldığı təlaşdan kişi əlindəki paltonu yerə saldı və kresloya sərələndi.

– Deyirsən ki... mən... təltif olunmuşam?

– Hə, ancaq hələlik bu, bir sirrdir... Həm də böyük sirrdir.

Qadın yerə düşən o mübarək paltonu şkafa qoyub, ərinə yanaşdı. Rəngi ağaran, vücudu əsən qadın dedi: –

Bu yeni paltonu sənin üçün sifariş edəndə mən söz vermişdim ki, hələlik bu sirri qoruyacağam. Bu barədə qərar sonradan, bir ay və ya ayyarım sonra çıxacaq... O vaxta qədər sən öz araşdırmalarını bitirməlisən. Ta ezamiyyətdən dönənə qədər sən heç nə bilməməliydin... Bütün bunları şəxsən cənab Rosselen özü düzüb-qoşubdur.

Dərin sarsıntı hissi keçirən Sakreman mızıldandı:

– Rosselen... orden... Deməli, ordeni ona borcluyam... mən... ona... A-a!

Özünə gəlmək üçün o, bir stəkan su içdi.

Bayaqkı paltonun cibindən düşən bir parça kağız yerdə ağarmaqdaydı. Bu, bir vizit kartıydı. Onu götürüb, oxudu: "Rosselen - deputat".

Arvadı dedi: – İndi inandın? Kişi sevincdən hönkürdü.

Düz bir həftədən sonra "Hökumət xəbərləri" qəzetində elan olundu ki, xüsusi xidmətlərinə görə cənab Sakreman Fəxri legion ordeninə layiq görülüb.

*Tərcümə:*
*Azad Yaşar*

TIME

# SAN FRANCISCO APPROVES WARNING LABEL FOR SUGARY DRINK ADS

### MEASURE IS AIMED AT CURTAILING LOCALS' CONSUMPTION OF HIGH-CALORIE DRINKS



***June 9, 2015***

***Katy Steinmetz***

San Francisco lawmakers unanimously voted on Tuesday to put warning labels on all advertisements for sugary beverages in the City by the Bay. This first-in-the-nation law is set to go into effect this summer, which means billboards or taxi-cab ads for Coke or Gatorade will soon bear this message:

WARNING: Drinking beverages with added sugar(s) contributes to obesity, diabetes, and tooth decay. This is a message from the City and County of San Francisco.

The new law, which the mayor has 10 days to sign or veto before it automatically goes into effect, was passed as part of a package aimed at curtailing locals' consumption of high-calorie drinks linked to health problems such as weight gain and diabetes. The city's board of supervisors also voted to ban advertisements for sugary drinks on publicly owned property—such as bus stops—and to prohibit the use of city funds for purchasing sugary drinks.

"Today, San Francisco has sent a clear message that we need to do more to protect our community's health," Supervisor Scott Wiener, who proposed the warning label, said in a statement. "These health warnings will help provide people information they need to make informed decisions about what beverages they consume. Requiring health warnings on soda ads also makes clear that these drinks aren't harmless — indeed, quite the opposite — and that the puppies, unicorns, and rainbows depicted in soda ads aren't reality."

This victory for Wiener and his allies comes on the heels of a defeat for lawmakers last year, when they tried and failed to pass a tax on sugary drinks through a ballot initiative. (Berkeley, the liberal bastion across the Bay, succeeded in becoming the first city to pass such a tax.) This year and last year, a state lawmaker tried unsuccessfully to pass a California law that would have required sugary drinks or their location of purchase to bear a health warning label, much like packages of cigarettes.

When TIME asked Wiener whether advocates planned to try again for a soda tax, he said there was momentum for more of the same but no firm commitments yet. "There are discussions happening," he said. "But it's too soon to say."

*http://time.com/3915485/san-francisco-soda-warning-label/*



# TEYYUB QURBAN

## ELƏ VURĞUNAM Kİ, AZƏRBAYCANA

Qürbətdə gəlsəydim əgər cahana,
Çətin ki, yaşardım, sönərdim həmən.
Laylamı çalsaydı ögey bir ana,
Rahatlıq tapmazdım beşiyimdə mən.

Dəyişik salsaydım qədim nəslimi,
Quru varlığımdan qalmazdı nişan.
Şəhid olmasaydı əgər Nəsimi,
Qan yox, su axardı damarlarımdan.

Başda durmasaydı Füzuli babam,
Söz nədir, sənət nə, bilə bilməzdim.
Havalanmasaydı şikəstə, muğam,
Danışa bilməzdim, gülə bilməzdim.

Mayam Xəzər ilə yoğrulmasaydı,
Necə atılardım okeanlara?
Xəzrim, gilavarım doğulmasaydı,
Sinə gərməz idim sərt tufanlara.

Kəpəzi, Qoşqarı görməsə idim,
Necə pərvazlanıb qanad çalardım?

Neyi, sazı, tarı görməsə idim,
Könül rübabını necə çalardım?

Sevirəm yurdumun hər qarışını,
Gülü də mənimdir, tikanları da.
Bir qaya sanıram hər çay daşını,
Mənimcün cənnətdir şoranları da.

Elə vurğunam ki, Azərbaycana,
Kiçik təpələri dağlara dönür.
Nadir övladları hələ bir yana,
Teyyub Qurbanı da gözə görünür.

## GÖZLƏ GÖRÜNMƏYƏN KÖRPÜ QURMUŞAM

Gözlə görünməyən körpü qurmuşam
İnsanla, torpaqla, güllə, çiçəklə,
Bir saf arzu ilə, bir pak diləklə.
Körpüm körpüsüdür səmimiyyətin,
Məni bu aləmdən qoparmaq çətin.

Gözlə görünməyən körpü qurmuşam
Vətən düzlərinin üfüqlərindən,
Vətən göylərinin şəfəqlərindən.
Körpüm körpüsüdür bu ülviyyətin,
Məni bu aləmdən qoparmaq çətin.

Gözlə görünməyən körpü qurmuşam
Nəsimi babamın əqidəsiylə,
Xaqani babamın qəsidəsiylə.
Körpüm körpüsüdür şerin, sənətin,
Məni bu aləmdən qoparmaq çətin.

Gözlə görünməyən körpü qurmuşam
Arazın danışan dalğalarından,
Savalan dağının təzə qarından.
Körpüm körpüsüdür bu təbiətin,
Məni bu aləmdən qoparmaq çətin.

Gözlə görünməyən körpü qurmuşam
Hörmüşəm canımın rişələrindən.
Yaşaram dünyada öz dünyamla mən,
Körpüm körpüsüdür əbədiyyətin,
Məni bu aləmdən qoparmaq çətin.

## İMTAHANA GƏLMİŞİK

*1989-cu ilin mart ayında xalqımızın qeyrətli oğlu Arif Mənsurov Mərdəkanda Hacı Zeynalabdin Tağıyevin məzarını bərpa etmiş, onun büstünü ucaltmışdır. Arif Mənsurovla görüş zamanı mənə "Bu dünyaya imtahana gəlmişik" qafiyəsi üstündə şeir yazmağı təklif etdi. Yazdım. Ancaq, "Bilməmişik imtahana gəlmişik"...*

Müəllif

Əbuturab Hacı ilə yanaşı,
Sara xanım - əsrimizin göz yaşı.
Bu üç məzar tariximin yaddaşı,
Ona görə Mərdəkana gəlmişik,
Bilməmişik imtahana gəlmişik.

Hanı Hacı yadigarı o bağlar?
Əbuturab yandırdığı çıraqlar?
Hanı yollar ayrıcında bulaqlar?
Keçmişləri dana - dana gəlmişik,
Bilməmişik imtahana gəlmişik.

Şüvəlanda Mir Mövsümün ruhu var,
Sağalmazlar şəfa tapıb sağalar.
Növrağımız əlimizlə dağılar,
Xəzri olub tez tüğyana gəlmişik,
Bilməmişik imtahana gəlmişik.

Abşeronun təbiəti qızıldı,
Ətəkləri quyu - quyu qazıldı.
Şənimizə mədhiyyələr yazıldı.
Zənn etmişik gülüstana gəlmişik,
Bilməmişik imtahana gəlmişik.

Bir damarda ayrı-ayrı qanlarıq?
Bir-birini yerli - yersiz danlarıq.
Əfsus, Teyyub, köç edəndə anlarıq, -
Gündoğandan günbatana gəlmişik,
Bilməmişik imtahana gəlmişik.

## VƏTƏNDƏN UZAQDA YAZILAN ŞEİR

Hər cür ayrılığın - düşünsən dərin -
Daim can atdığı mənzili vardır.
Bu axan çayların, coşan sellərin
Əbədi beşiyi okeanlardır.

Dayənin yanında böyüyən uşaq
Ana həsrətiylə baxar yollara.
Güldana tökülən bir ovuc torpaq
Ağac da bitirsə, düşübdür dara.

Eyvanı bəzəyən gülün, çiçəyin
Qopduğu zəmisi, çəməni vardır.
Meşənin üstündə çaxan şimşəyin
Əngin səmalarda məskəni vardır.

Qürbət ölkələri dolaşan şair
Öz doğma yurdunun oğludur əvvəl.
Vətəndən uzaqda yazılan şeir
Vətən torpağında doğulur əvvəl.

## GEDİRƏM ÖMRÜMÜN AHIL YAŞINA

Gedirəm ömrümün ahıl yaşına,
Yorğunu etmədi bu yollar məni.
Hardasa taleyin ulduzu yandı,
Hardasa qəlbimdə sevgi oyandı.
Çəkdi imtahana intizar məni,
Nə yaxşı qovuşdum can sirdaşına.

Gedirəm ömrümün ahıl yaşına,
Minnət götürmədim zatı qırıqdan.
Nə dövlət yığmışam, nə də varidat,
Canlı əmanətim, qazancım övlad.
Könül zövq almadı hər yaraşıqdan,
Uymadı dünyanın bəzək daşına.

Gedirəm ömrümün ahıl yaşına,
O şux cavanlığım uzaqda qaldı.
Gecəni gündüzə qata biləydim,
O qarşı zirvəyə çata biləydim.
Zirvə ki, qocalıq yazılıb adı,
Bəyaz qar ələnir məğrur başına.
Gedirəm ömrümün ahıl yaşına.

# ABŞ: AZADLIQ ABİDƏSİ

## *STATUE OF LIBERTY*



Azaqdlıq heykəli Amerika Birləşmiş Ştatlarının əsas simvollarından biri sayılır. Heykəl Nyu-York ştatında, Liberty (Azadlıq) adasında yerləşir. 1886-cı ildə hazırlanan heykəl dünyanın ən məşhur abidələrindən biridir.

Azadlıq heykəli Fransada hazırlanıb və Misirdə, Süveyş Kanalı üzərinə qoyulmaq üçün nəzərdə tutulmuşdu. Amma sonradan heykəlin bu bölgəyə qoyulmasının narahatlıq yarada biləcəyi düşünüldüyü üçün ondan imtina edilib.

93 metr hündürlüyündəki heykəlin istehsalında mis və poladdan istifadə olunub. Yaşıl rəngli əsərin memarı isə fransız heykəltəraş Frederik Avquste Bartholdidir. Heykəldən imtina edilməsi səbəbilə əsər Parisdə bağlı bir sahədə mühafizə edilib.

Daha sonra Amerika Birləşmiş Ştatlarının müstəqilliyinin 100-cü ildönümü ilə əlaqədar hədiyyə axtaran Fransa həmin memardan əsərdən istifadə etmək üçün icazə alıb və bəzi dəyişikliklər ediləndən sonra bugünkü forması ilə Amerikaya göndərilib. Heykələ düzəliş etmək üçün Frederik Avquste Bartholdiyə Eyfel qülləsinin mühəndisi Qustav Eyfel kömək edib.

Heykəlin sağ əlində məşəl, sol əlində isə kitab var. Kitabın üstündə 4 iyul 1776-cı il, yəni Müstəqillik Bəyannaməsinin tarixi yazılıb. Heykəlin başındakı tacın 7 iti ucu 7 qitəni və ya 7 dənizi simvolizə edir. Heykəlin məşəl tutan sağ əlinin hündürlüyü 13 m-dir. Məşəlin ətrafındakı dəhlizdə 15 adam bir yerdə gəzə bilər. Heykəlin başının eni 2 metr, hündürlüyü isə tacı ilə birlikdə 5 metrdir. Azadlıq heykəlini ziyarət etmək istəyənlər heykəlin olduğu Azadlıq adasına bərə vasitəsilə gedirlər. Ziyarətçilər heykəlin içindən məşələ qədər 168 pilləli nərdivanla çıxa bilərlər. Heykəldən Nyu-Yorkun möhtəşəm mənzərəsini seyr etmək mümkündür.




Ünvan: Bakı, Əcəmi Naxçıvani 9

Dünya məktəbi
Tel.: (012) 563 59 40/47/48
Mob.: (070) 844 08 88
E-mail: info@dunyaschool.az
http://dunyaschool.az

Dünya bağçası
012) 563 59 43; 563 59 45
Mob.: (070) 560 15 18
E-mail: bagca@dunyaschool.az

# DÜNYA MƏKTƏBİ

## VALİDEYNLƏRİN VƏ ŞAGİRDLƏRİN NƏZƏRİNƏ!

XƏZƏR UNİVERSİTETİNİN DÜNYA MƏKTƏBİ 2015-2016-CI TƏDRİS İLİNDƏ I-XI SİNİFLƏRƏ ŞAGİRD QƏBULU ELAN EDİR:

Qəbul müsabiqə yolu ilə həyata keçirilir.

Təhsil 3 dildə (Azərbaycan, rus, ingilis) aparılır. Azərbaycan və rus bölmələrində ingilis dili ikinci dil kimi tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman, çin dilləri də öyrədilir.

Məktəbdə təcrübəli pedaqoqlar, o cümlədən xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar. Burada savadla yanaşı, tərbiyə də mühüm yer tutur.

Dünya məktəbi beynəlxalq statuslu məktəbdir. O, Beynəlxalq Bakalavr Təşkilatının (İnternational Baccalaureate Orqanization – IBO) üzvüdür. Məktəbdə IB Diplom Proqramı fəaliyyət göstərir.

X sinif şagirdləri tam orta təhsillə yanaşı, öz istəkləri ilə Beynəlxalq Bakalavr Təşkilatının Diplom Proqramında təhsil ala bilərlər. Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər.

Diplom Proqramında təlim ingilis dilindədir. Təhsil müddəti 2 ildir.

Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar.

## MƏKTƏBƏQƏDƏR HAZIRLIQ

2015-2016 –cı il üçün hazırlığa uşaq qəbulu davam edir.

Hazırlıqda 4-5, 5-6 yaşlı uşaqlar üçün Azərbaycan, ingilis və rus dillərində qruplar təşkil olunub. Bütün qruplarda əlavə iki dil (Azərbaycan, ingilis, rus) tədris edilir.

Gündəlik dərs proqramından əlavə, Şahmat, Kompüter, Psixologiya, Rəsm-Əmək, Rəqs, Dram və Musiqi dərsləri keçirilir.




**Universitetdə bakalavr pilləsində aşağıdakı ixtisaslar üzrə kadr hazırlığı aparılır:**

**I qrup üzrə:**

- Kompüter elmləri
- Neft-qaz mühəndisliyi
- Kompüter mühəndisliyi
- İnşaat mühəndisliyi
- Riyaziyyat və informatika müəllimliyi
- Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi
- Kimya mühəndisliyi
- Biotibbi texnika mühəndisliyi

**II qrup üzrə:**

- Mühasibat uçotu və audit
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Tarix müəllimliyi
- Coğrafiya müəllimliyi
- Regionşünaslıq (regionlar üzrə)
- Beynəlxalq münasibətlər

**III qrup üzrə:**

- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- Xarici dil (ingilis dili) müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Filologiya (İngilis dili və ədəbiyyatı)
- Filologiya (Azərbaycan dili və ədəbiyyatı)
- Politologiya
- Tərcümə (ingilis dili və digər dillər)

**IV qrup üzrə:**

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Psixologiya

**Ünvan: Məhsəti küçəsi, 41**
**(Neftçilər metrosunun yaxınlığında)**
**Əlaqə telefonları: (012) 323-93-13, (012) 408-81-78, (012) 421-79-27**
**Faks: (012) 498-93-79**
**İnternet: http//www.khazar.org**

# XƏZƏR UNİVERSİTETİ

**Xaricdə ən çox tanınan,**
**xaricə ən çox tələbə göndərən,**
**xaricdən oxumağa tələbələrin ən çox gəldiyi,**
**xarici müəllimlərin ən çox işlədiyi ali məktəbdir.**
**siteti Azərbaycanda yeganə universitetdir ki, onun tədris siyasəti və**
**Xəzər Univer diplomları Avropa və Amerikanın universitetləri tərəfindən tanınır.**

**Xəzər Universiteti dünyada ali məktəblərin reytinqinin müəyyənləşdirilməsi sahəsində nüfuzlu təşkilatların reytinq cədvəlində Azərbaycan ali məktəbləri arasında həmişə birinci olmuşdur.**

**"QS"** təşkilatının 2014-cü il dekabr ayının 17-də elan etdiyi reytinq cədvəlinə əsasən **Xəzər Universiteti** Azərbaycanın ən yaxşı ali məktəbi olmaqla yanaşı, Şərqi avropa, keçmiş sovet ölkələri və Türkiyə daxil olmaqla böyük bir regionun 100 ən yaxşı universiteti sırasına daxil edilmişdir. *http://www.iu.qs.com/eeca2014-rankings-results/*

**EDUNIVERSAL** Beynəlxalq Elmi Cəmiyyətinin 2014-cü il dekabr ayının 24-də açıqladığı reytinq cədvəlinə görə Xəzər Universitetinin ***Menecment, İqtisadiyyat, Mühasibat uçotu və audit*** ixtisasları üzrə MBA proqramları 2014-cü ildə dünyanın ən yaxşı 200 magistr proqramı sırasına daxil olub. Eyni zamanda, hər 3 proqram Avrasya və Yaxın Şərq bölgəsi üzrə ən yaxşı 10 magistr proqramı siyahısında yer alıb. *www.best-masters.com*

***

*Xəzər Universiteti ilk gündən beynəlxalq təcrübəyə əsasən quruldu və Azərbaycanda ingilis dilində tədrisə keçən ilk universitet kimi tanındı. Təhsil sahəsində ən qabaqcıl ölkələrin təcrübəsini öyrənmək və tətbiq etmək ilkinliyi də məhz Xəzər Universitetinə nəsib oldu. Dünya təhsil məkanında qabaqcıl mövqeyi və nüfuzu ilə diqqətçəkən Universitetin beynəlxalq əlaqələri yalnız təlim-tədris sahəsində deyil, yüksək ixtisaslı dünya insanı hazırlığında da əhəmiyyət daşıyır. Demokratizm və humanizm, plüralizm və şəffaflıq, müasirlik və təşəbbüskarlıq, ən son təlim texnologiyalarından istifadə, beynəlxalq proqram və layihələrdə fəallıq və digər bu kimi hallar bütünlüklə Universitetdə işgüzarlıq şəraiti yaradır, tələbələrin fəallığı və müstəqilliyini təmin edir.*

***Professor Əjdər Ağayev,***
***Azərbaycan Təhsil Şurasının sədri***

## Universitetin maddi-texniki bazası

Məhsəti küçəsi, 41 ünvanda yerləşən müasir avadanlıqlarla təchiz edilmiş tədris korpusunda (Neftçilər metrosunun yaxınlığında), şəhərin mərkəzində Bəşir Səfəroğlu küçəsi, 122 ünvanda yerləşən tədris binasında və 8-ci MKR, Əcəmi Naxçıvani küçəsi, 9 ünvanda (Ayna Sultanovanın heykəlinin yaxınlığında) 3 bina və ayrıca idman kompleksindən ibarət tədris kampusunda yüksək keyfiyyətli təhsil almaq üçün hər cür şərait yaradılmışdır.

## Təhsil və karyera imkanları

Təhsildə fərqlənən tələbələr təhsillərini Amerika, Kanada, İngiltərə, Fransa, Almaniya, Hollandiya, İsveç, İtaliya, Türkiyə, Çin, Yaponiya və s. ölkələrin tanınmış universitetlərində davam etdirmək imkanı qazanırlar.

Xəzər Universitetində əsas təhsil dili ingilis dilidir. Bu, tələbələrin müasir dərsliklərdən istifadə etməsi, təhsillərini xaricdə davam etdirməsi, xaricdən gələn müəllimlərin effektli dərs deməsinə geniş imkan verir. Məzunlar və yuxarı kurs tələbələri xarici şirkətlərdə yüksək maaşlı işlərə dəvət alırlar, eləcə də dövlət təşkilatlarında və ölkəmizin qabaqcıl şirkətlərində işləmək imkanı əldə edirlər.

## Təhsil haqqının ödənilməsində güzəştlər

TQDK-nın keçirdiyi imtahanlarda yüksək bal toplayan tələbələrə aşağıdakı qaydada güzəştlər edilir. Imtahanlarda:
650-700 bal toplayan tələbələr təhsil haqqından tam azad edilir.
600-649 bal toplayan tələbələr təhsil haqqının cəmi 25%-ni ödəyir.
550-599 bal toplayan tələbələr təhsil haqqının 50%-ni ödəyir.
500-549 bal toplayan tələbələr təhsil haqqının 75%-ni ödəyir.

**Tələbələr təhsil aldıqları müddətdə əsgəri xidmətdən azaddırlar.**